**TRANSPARENCY INTERNATIONAL AZERBAIJAN**

**AZ 1009 Azerbaijan, Baku**
**J. Jabbarli str. 16,apt. 7**
**Tel:** **(99 412) 418 11 09**
**Fax:** **(99 412) 596 20 38**
**Toll Free:** **088 707 07 07**
**e-mail:** **jeyhun@transparency-az.org**


---

*Mətbuat üçün əlaqə: Rəna Səfərəliyeva, İcraçı Direktor*
*Ceyhun Atayev, ALAC layihəsinin Baş Koordinatoru*

23 Sentyabr 2008

**"Şəffaflıq Azərbaycan" Korrupsiya Qarşı Mübarizə İB-nin mətbuat üçün məlumatı**

**Korrupsiyanı Qavrama İndeksi (KQİ) 2008**

"Transparency İnternational" təşkilatının Azərbaycandakı milli bölməsi olan "Şəffaflıq Azərbaycan" İB Azərbaycanın Korrupsiyanı Qavrama İndeksində son iki il ərzində aşağı reytinqi ilə bağlı öz narahatlığını bildirir. Ölkə Korrupsiyanı Qavrama İndeksində 1,8 balla 2003-cü ildən 2006-cı ildə 2,4 baladək yüksəlməsini nümayiş etdirməklə, hökumətin vətəndaş cəmiyyət ilə birgə apardığı işlərin nəticəsini göstərir.

Daha dəqiq desək, hökumətin vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatlar ilə birgə qəbul etdiyi və hal-hazırda həyata keçirdiyi 2007-2011 illər üçün "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" 2004-2006-cı illər üçün "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramın"- dan daha da effektivdir. Qanunvericilik bazasının təkmilləşdirilməsi mövcuddur ("Korrupsiyaya qarşı mübarizə haqqında" qanunun qəbulu və ona sonradan edilən əlavələr, qəbul olunmuş "Dövlət Qulluqçularının Etik Davranış Kodeksi" və s.). İnstitusional səviyyədə Azərbaycanda Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Komissiyası, Baş Prokurorluğun nəzdində Korrupsiyaya qarşı mübarizə İdarəsi, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində çalışan bütün hökumət və QHT-lərin əlaqələndirici şəbəkəsi fəaliyyət göstərir.

"Transparency İnternational" təşkilatının dünyanın 90 ölkəsində olan milli bölmələr arasında Azərbaycan bölməsi yeganədir ki, onun həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" adlı layihəsində ölkə üzrə beş regional mərkəzi mövcuddur. Layihənin əvvəlindən, 2005-ci ilin iyun ayından "Şəffaflıq Azərbaycan" İB mərkəzlərinə 15000-dən çox vətəndaş müraciət edib, onlardan 2000-dən çoxu yazılı şikayət ərizələri təqdim ediblər. Həmin ərizələr təşkilatın dövlət orqanlar ilə əməkdaşlıq çərçivəsi nəticəsində 80%-dan çoxu müsbət həll olunub.

Dünya Bankının "Doing Business 2009" adlı Hesabatına görə, islahatın 10 göstəricisindən 7-də əla nailiyyətlər nümayiş etdirməklə, Azərbaycan 2007-2008 illər üzrə islahat aparan dövlətlər siyahısında birinci yer tutur. Həmin hesabatda əks olunmuş işgüzar mühitin yaxşılaşması ilə yanaşı, "Şəffaflıq Azərbaycan" İB həm də məhkəmə qərarların icraatında, dövlət xidmətinə qəbulunda, pensiyaların hesablanmasında və müraciətlərin baxılma mexanizmində müsbət dəyişikləri müşahidə edir, xüsusi ilə Təhsil Nazirliyində. İşgüzar adamlar ilə birbaşa çalışan dövlət orqanları biznes aparılması dəyərinin aşağı salmasında və sadələşdirməsində peşəkar yanaşmanı nümayiş etdirdilər.

Azərbaycan dövlətinin və vətəndaş cəmiyyətinin bu sahədə birgə apardığı konkret səylərini EİTİ, GRECO, Dünya Bankı və OECD, o cümlədən Azərbaycanın iş adamları tərəfindən ("Şəffaflıq Azərbaycan"ın "Ölkədə korrupsiyanın səviyyəsinin qiymətləndirilməsi: Azərbaycanda işgüzar mühit" adlı təhqiqat işi) qiymətləndirilmişdir. Lakin onların geniş işgüzar icması arasında müsbət təəssüratın yaranmamağı ondan irəli gəlir ki, qavrama ləngiyir. Bunun ilə əlaqədar "Şəffaflıq Azərbaycan" İB təəssüflənir ki, mövcud olan metodologiya yuxarıda qeyd olunan müsbət dəyişikləri KQİ-də əks etdirmir və bununla da dövlətin nail olası yeri həmin indeksdə tutulmasına imkan yaratmır.

Lakin, "Transparency İnternational" təşkilatının Korrupsiya Qavrama İndeksi çox mürəkkəb indeksdir ki, o özündə Azərbaycan ilə bağlı 8 ayrı-ayrı məlumat mənbələrini birləşdirir və onlardan 5-i isə son iki ilə aid olan məlumatlara əsaslanır. Bu cür məlumat mənbələri toplusu əksər müsbət islahatların və onların nəticələrini əks etdirməyə imkan vermir. Cəmiyyət tərəfindən qavranmanın dəyişilməsi və islahatların mütərəqqi olması anlamı məhz zaman keçdikcə gələcək. "Şəffaflıq Azərbaycan" İB tam ümidvardır ki, bu cəhdlərin nəticələri tezliklə öz əksini dövlətimizin reytinqinin yaxşılaşmasında, Dünya Bankının "Doing Business 2009" Hesabatında olduğu kimi axırıncı KQİ hesabatlarında tapacaq.

Lakin bu o demək deyil ki, korrupsiya Azərbaycan üçün böyük problem yaratmır, və gələcəkdə korrupsiyaya qarşı mübarizədə dövlət tərəfindən ciddi cəhdlərin görülməsi vacib sayılmır. Belə bir şəraitdə, dövlət idarəetmə sisteminin və qanunların icrası vəziyyətinin düzgün qiymətləndirilməsi üçün hərtərəfli tədqiqat tələb olunur. "Transparency İnternational" təşkilatı belə bir metodologiyanı – "National Integrity Systems Study" ("Dövlət Davranış Etikasının Əsasları" tədqiqatı) yaradıb və korrupsiyanın yaranma səbəblərini və mənbələrini düzgün başa düşmək, və lazımı tədbirləri görmək üçün bu tədqiqat dövlətə kömək edir. Bu tədqiqatın nəticələri nəinki korrupsiyanın əlamətləri ilə, o cümlədən səbəbləri ilə də məşğul olmağa imkan yaradır. Korrupsiya qarşı mübarizədə dövlət öz siyasi iradəsini ifadə edir və biz inanırıq ki daha yaxşı nəticələr əldə edilməsi dövlətin, vətəndaş cəmiyyəti, işgüzar icma və vətəndaşlar ilə birgə səyləri nəticəsində mümkün olacaq.

"Şəffaflıq Azərbaycan" İB inanır ki, dövlət islahatlar yolunda düzgün mövqe tutub və ölkə rəhbərliyinin bu istiqamətdə olan məqsədlərini dəstəkləyir.

***"Şəffaflıq Azərbaycan" İB-in***
***İctimaiyyət və Mətbuat ilə Əlaqədar Şöbəsi***

## TRANSPARENSY INTERNATIONAL
## KORRUPSİYANI QAVRAMA İNDEKSİ (KQİ) 2008

## SUALLAR VƏ CAVABLAR

### Korrupsiyanı Qavrama İndeksi (KQİ) nədir?

Tİ təşkilatının tərtib etdiyi Korrupsiyanı Qavrama İndeksi (KQİ), dövlət qulluqçuları və siyasətçilər arasında mövcud olan korrupsiya haqqında təsəvvürlərin dərəcəsindən asılı olaraq, dövlətlərin sıralanmasını tərtib edir.

### KQİ nə üçün yalnız təsəvvürlərə əsaslanır?

Mövcud materiallar, məsələn, cinayət işləri və ya məhkəmə qərarlarının miqdarı əsasında müxtəlif ölkələr üzrə korrupsiya səviyyəsinin müqayisəli təhlilini aparmaq çox çətindir.

### Tİ-nin tərtib etdiyi KQİ-də «korrupsiya» anlayışı necə müəyyən olunur?

Tİ təşkilatı öz diqqətini dövlət sektorunda mövcud olan korrupsiyaya cəmləşdirir və korrupsiyanı şəxsi mənafe məqsədi ilə vəzifədən sui-istifadə kimi müəyyən edir.

**KQİ-ni kim tərtib edir?**

"Transparency International" təşkilatı KQİ-ni tərtibini Professor Cohan Labmdorf (Johann Graf Lambsdorff) həvalə edir. Professor Lambsdorf Almaniyadakı Pasau Universiteti (University of Passau) İqtisadi Nəzəriyyə Kafedrasının müdiri və "Transparency International" təşkilatının Baş Tədqiqat Müşaviridir. Nə "Transparency International" təşkilatın Katibliyi, nə də ki onun milli bölmələri KQİ-nin tərtib edilməsinə və nəticəsinə heç bir təsir göstərmir.

**KQİ-nə neçə ölkə daxil edilib?**

Kecən ildəki kimi, 2008-ci ildə KQİ-nə 180 ölkə daxil edilmişdir.

**KQİ- 2008 tərtib edilərkən hansı mənbələrdən istifadə olunub?**

KQİ 2008-ci il 11 müstəqil təşkilatlın keçirdiyi 13 müxtəlif sorğu və təhlillərin nəticələrinə əsaslanıb. Transparency International tədqiqatları nə özü aparır, nədə ki onun milli bölmələri və ya ölkədəki başqa yerli agentliklər tərəfindən hazırlanan tədqiqlərdən istifadə etmir. Məlumatları Transparency International-a onu yığan təşkilatlar tərəfindən təmənnasız təqdim edilir.

**Azərbaycan ilə bağlı hansı mənbələrdən istifadə olunub?**

Azərbaycan üçün istifadə olunan məlumat 8 müxtəlif mənbələrdən götürülüb. Mənbələrin bir qısmi bütün məlumatı açıqlanmır, digərləri isə ictimaiyyət üçün açıqdır.

1. Asian Development Bank, Country Performance Assessment Ratings, 2007/2008
http://www.adb.org/Documents/Reports/ADF/2007-ADF-PBA.pdf

2. Bertelsmann Foundation, Bertelsmann Transformation Index, 2007/2008,
http://www.bertelsmann-transformation-index.de/11.0.html?&L=1

3. World Bank (IDA and IBRD) Country Policy and Institutional Assessment, 2007/2008
http://web.worldbank.org/WBSITE/EXTERNAL/EXTABOUTUS/IDA/0,,contentMDK:20933600~menuPK:2626968~pagePK:51236175~piPK:437394~theSitePK:73154,00.html

4. Economist Intelligence Unit, Country Risk Service and Country Forecast, 2008
www.eiu.com

5. Freedom House, Nations in Transit, 2008
http://www.freedomhouse.hu/index.php?option=com_content&task=view&id=196

6. Global Insight, Country Risk Ratings, 2008
http://www.globalinsight.com

7. Merchant International Group, Grey Area Dynamics, 2007
www.merchantinternational.com

8. World Economic Forum, Global Competitiveness Report, 2007/2008
www.weforum.org

**2008 ilin KQİ-də Azərbaycanın yeri?**

Azərbaycan üzrə olan göstəricilər 2.1-dən 1.9-dək yenib və onun yeri 180 ölkələrin arasında 2007-ci ildə 150-ci yerdən 2008-ci ildə 158 yerə düşmüşdür.

**KQİ-nin mənbələrinin dəyişilməsi digər dövlətlərin göstəricılərinə təsir edirmi?**

Bəli, Rusiyanın göstəriciləri 0,2 yenib (2,3-dən 2,1-dək). Eyni vəziyyətdir, yani göstəricilərin 0,2 yenməsi Ukrayna (2,7-dən 2,5-dək) və Türkmənistan ilə (2,0-dan 1,8-dək) bağlıdır, Qırğızıstan ilə bağlı vəziyyət isə 2,1-dən 1,8-dək yenib.

Başqa ölkələrin göstəricilərin dəyişilməsi heç də KQİ-nin mənbələrinin dəyişilməsi ilə bağlı deyil, o, həmin ölkələrdə birbaşa korrupsiyanın səviyyəsinin artması ılə bağlıdır.

Həmin ölkələrin sırasında Böyük Britaniya, Fransa, Finlandiya qeyd olunurlar. Böyük Britaniyanın göstərəcəkləri 8,4-dən 7,7-dək yenməklə, ölkənin 12-ci yerdən 16-cı yerədək, Finlandiyanın (hansı ki 2007-ci ilin KQİ-də birinci yer tutmuşdu) göstərəcəkləri 9,4-dən 9,0-dək yenməklə ölkənin 5-ci yerədək və Fransanın göstərəcəkləri 7,3-dən 6,9-dək yenməklə, ölkənin 19-ci yerdən 23-cı yerədək salmışdır.

**Hansı ölkələrin qöstəriciləri yaxşılaşıb?**

2008-ci ildə keçən illə müqayisədə Albaniya, Bəhreyn, Benin, Kipr, Gürcüstan, İndoneziya, İordaniya, Nigeriya, Oman, Polşa, Qatar, Cənubi Koreya və Türkiyə kimi ölkələrin göstəriciləri yaxşılaşıb.

**2008-ci ilin KQİ-də Azərbaycanla qonşularının, məsələn Ermənistanın balı arasında fərq kifayət qədər böyükdür. Bu cür nəticələri və ölkələr arasında fərqi necə izah edərdiniz?**

Azərbaycanla Ermənistanın xalı arasında fərqi “böyük” adlandırmazdım. Ermənistanın 2007 3.0 balı və 2008 2.9 balı o qədər də yaxşı deyil. Azərbaycanın iqtisadi potensiyalı çox böyük olduğundan buraya daha çox beynəlxalq diqqət cəlb olunur. Bu da başqa bir səbəb ola bilər ki, beynəlxalq biznes icması Ermənistana nisbətən Azərbaycandakı vəziyyətə daha kritik yanaşır.